# PROFESSOR MƏHƏMMƏD BALAYEV

Görkəmli filosof Məhəmməd Balayevlə bağlı müxtəlif vaxtlarda fikir və düşüncələrimi bölüşməyə çalışmışam. Sonuncu yazımı təxminən bir il əvvəl yazmışdım. Bir sıra məsələlərlə bağlı söhbətlərimiz əsasında qələmə almışdım. Yazı çap olunmamışdan bir qədər əvvəl isə o, Haqqın dərgahına qovuşmuşdu. Bəlkə də həmin yazının yazılmasına səbəb söhbətimizdə həssaslıqla vurğuladığı məqamlar olmuşdu, deyə bilmərəm. Ancaq M.Balayevin bir alim, müəllim, ziyalı və şəxsiyyət kimi bütövlüyü və örnək ola bilmə bacarığı ilə bütün məqamlarda sözə ehtiyac doğurmuşdur. Xeyirxahlığı, səmimiyyəti, insanlara həssaslığı, əl tutmaq istəyi və həm də bu keyfiyyətlərlə yanaşı, məsələlərə prinsipial, aydın mövqeyi ona olan münasibətin əsasında dayanırdı. Dünyanın bugünkü dolaşıqlıqlarında, şərin ayaq açıb yeridiyi vaxtda belə insanlara daha çox ehtiyac olur. Çünki M.Balayev yerindən, məqamından asılı olmayaraq, sözün həqiqi mənasında söz sahibi olub və haqqın yanında durmağı bacaran az-az kəslərdən idi.

Əvvəlki yazılarımda da, sonuncu yazımda da onun bir şəxsiyyət kimi xarakterini, yaradıcı şəxsiyyətinin bütün aspektlərdə aparıcı rolunu diqqət önünə gətirməyə çalışmışdım. Həm də tipoloji yanaşmada onun apardığı araşdırmalarında özünü göstərən şəxsiyyət modelini açmaq düşüncəmdən keçmişdi. Çünki prof.M.Balayevin məqalələrində, ayrı-ayrı kitablarında və müxtəlif səpkili yazılarında özünü göstərən yanaşmalar, təhlil prinsipləri sırf orijinallığa, mətnin verdiyi informasiyalara, tarixi faktların ehtiva etdiyi məzmuna bağlanır. Tədqiqatçı üçün bu əlbəttə ən ümdə keyfiyyət, mövqe ortaya qoya bilmək bacarığından irəli gəlir. "Azərbaycanda yerli pir və ocaqların islamlaşdırılmasının bəzi məsələləri", "Müqəddəslərə inam niyə yaşayır", "İslamda imamlığın yaranması və onun inkişafı tarixi", "Seyidlik və müasir dövrdə onun qalıqlarının təzahür formaları", "Müqəddəslərə pərəstişin yaranmasına dair", "Din və vicdan azadlığı", "İslam dini təşkilatları və onların fəaliyyət istiqamətləri", "İslam: din və siyasət", "Müasir dövr və islam təşkilatları", "Sufizmin meydana gəlməsinin ictimai-iqtisadi və siyasi şəraiti", "Ali məktəblərdə fəlsəfə elminin tədrisinin bəzi məsələləri", "Cəmaləddin-əl Əfqaninin dini, ictimai və siyasi görüşləri", "Vəhabilik təriqəti necə meydana gəlmiş və onun dini prinsipləri nəyi təbliğ edir", "Məhəmməd Füzulinin dini, siyasi və əxlaqi görüşləri", "Kitabi-Dədə Qorqud və islam", "Akademik Heydər Hüseynovun həyat və yaradıcılığı", "Səfəvilər dövlətinin siyasi strukturu", "Ələsgər Ələkbərovun Azərbaycan maddi və mənəvi mədəniyyətinin öyrənilməsində xidməti", "Nəsirəddin Tusinin fəlsəfəsi", "Azərbaycan Demokratik Respublikasının humanitar siyasətinin bəzi məsələləri", "Müstəqil respublikamız və dilimiz", Georq Vilhelm Fridrix Hegel və Şərq", "İslamda fəlsəfi ideyaların yaranması və inkişafı" və s. kimi rəngarəng tədqiqatları ilə diqqət önünə gələn alim bütün məsələlərə konseptual baxışları, xalqın mədəniyyət tarixinə həssas yanaşmaları ilə həmişə nümunə olmuşdur.

M.Balayev tələbəlik illərimdə mənə dərs demişdi. Tələbə yoldaşlarım və mən onun mühazirələrindən doymazdıq. Ulu yaradan mənim qarşıma həmişə xeyirxah, böyük ideallarla yaşayan adamlar çıxarıb. M.Balayev də onlardan biri idi. Tələbəlikdən başlayan bağlantılarımız sonrakı dönəmlərdə, aspirantura illərimdə, tədqiqatçı kimi xalq yaradıcılığının, ədəbiyyatımızın ayrı-ayrı problemlərinin öyrənilməsində də müxtəlif səviyyələrdə özünü göstərirdi. Çünki müəllimimizin səmimiyyəti və xeyirxahlığı ona qarşı içimizdə bir isti münasibət yaratmışdı. Həmin səmimiyyət isə axıra qədər söhbətlərimiz üçün bir meyar rolunu oynadı. Bizi bir-birimizə bağlayan digər məqam isə el-oba ilə bağlı olan söhbətlər idi. Ümumiyyətlə, xalq adamı idi, fikri, düşüncəsi, yurda, el-obaya bağlı kəslərdən olması ilə nəzərdiqqəti cəlb edirdi. Onun dünyaya göz açdığı Xanlıqlar kəndi (əvvəl Musaköy adlanırdı) öz tarixi mədəniyyəti, etnoqrafik yaddaşı, elmə, mədəniyyətə verdiyi böyük-böyük şəxsiyyətləri ilə həmişə xüsusi maraq doğurmuşdu. XVIII əsrin sonu, XIX əsrin zənginliyində və poeziya qaynarlığında bu kəndin xüsusi yeri vardır. Kəndin ehtiva elədiyi ad, sözün etimaloji informasiya qatı hər iki xətdə (əvvəlki və sonrakı adlanmalarda, daha doğrusu, Musaköy və Xanlıqlar adında) daha dərin mətləblərə, zəngin fakturaya bağlanır. XIX əsrin mürəkkəb situasiyasında, ictimai, siyasi gərginliklərin baş alıb getdiyi zamanda nəqşbəndiliyin mürşidi Seyid Mir Həmzə Nigarinin Qarabağdan (Cijimli kəndindən) Qazağın Xanlıqlar kəndinə pənah gətirməsi və bu qaynar mühitdə bir müddət yaşaması təsadüfi deyildir. Prof. M.Balayev də məhz həmin ədəbi-mədəni mühitin qaynarlığında dünyaya göz açmış və qəlbini, düşüncəsini o ruhun yaşarlığına kökləmişdi.

Azərbaycan fəlsəfi məktəbinin banilərindən olan Əbülhəsən Bəhmənyar (993-1067) vurğulayırdı ki, "elə kəslərlə hömsöhbət ol ki, onların dediklərı dərin kitabları xatırlatsın, elə kitabları oxu ki, onlar böyük filosofların söhbətlərinə bərabər olsun". M.Balayev də dünyaya göz açdığı mühit, zəngin elat həyatı, şəxsi bacarıq və qabiliyyəti, yüksək intelleksiyası baxımından məhz bu təsəvvürü formalaşdıran tək-tək ziyalılardan idi. Onunla həmsöhbət olmaq özü qürurverici idi. Elmi faktlara bələdliyi, tarixi-mədəni mühiti incəliklərinə qədər mənimsəmə və qiymətləndirmə bacarığı, sosial çevrədə, bütünlükdə ictimai, siyasi və mədəni mühitdə olanlara həssaslığı və həm də güclü yaddaşı fərqləndirici bir keyfiyyət kimi ona əlavə dəyər qazandırırdı. Məhəmməd Balayev bunlar timsalında çox qabaqda idi və maraq dairəsində olanlar isə sırf etnosun tarixi-mənəvi mədəniyyətinə, etnik yaddaşdan gələnlərin qorunuşuna bağlanırdı. İçərisində qurduğu haqq tərəzisi Zevsin qızıl tərəzisi olaraq ədalətə, xeyirxahlığa, haqqın yanında olmağa hesablanmışdı. Belə kəslərin isə həyatı o qədər də rahat olmur, mütləq çətinliklərlə, ədalətsizlərlə qarşılaşmalı olur. İllah da nizamın pozulduğu zamanlarda. Filosof alimimiz məhz bütünlükdə həyatı boyu və mənim gördüklərim miqdarında həmişə bu yolu tutdu. Sözün həqiqi mənasında söz sahibi oldu. Adına, izzətinə layiq və nümunə olacaq bir ömür yaşadı.

Professor Məhəmməd Alı oğlu Balayev 1938-ci ild iyun ayının 1-də Qazax rayonunun Xanlıqlar (Musaköy) kəndində kəndli ailəsində dünyayagöz açmışdır. Kəndin çal-çağırı, zəngin mədəni yaddaşı onun erkən yaşlarından şəxsiyyətini formalaşdırmış və sonrakı fəaliyyət dönəmində bir meyar olaraq əsas götürülmüşdü.

Musaköy 7-illik məktəbində təhsil illəri, Qazax şəhər 1 №-li məktəbdə təhsilini davam etdirməsi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş V.İ.Lenin adına APİ-nin) filologiya-tarix fakültəsində oxuması və sonrakı dönəmdəki müəllimlik fəaliyyəti onun həyat pillələri ilə necə irəliləməsinin avtobioqrafik mənzərəsidir. Yardımlı rayonunun Arus kəndində, Bakı şəhərinin ayrı-ayrı rayonlarındakı müəllimlik fəaliyyəti M.Balayevin elmə marağı ilə həmişə bir addımlamışdır. Həmin maraq onu Azərbaycan milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına gətirib çıxarmışdır (1964). "Azərbaycanda müqəddəs pirlərin qalıqları" mövzusunda yazdığı dissertasiya xalqın mənəvi mədəniyyətinin, ilkin təsəvvürlərdən günümüzə qədər gəlib çıxacaq və bundan sonra da nəsillərlə yaşayacaq müqəddəs ocaqların, inam yerlərinin araşdırılmasına həsr olunmuşdur. Onu da əlavə edək ki, bütün xalqlar öz zəngin mədəniyyəti, keçmişi, milli-mənəvi dəyərləri ilə ayaq üstə durur. Azərbaycan xalqı da bu sırada olub zəngin tarixi, məişəti, etnik-mədəni dəyərləri ilə diqqət önünə gəlir. Çünki xalqın milli-mənəvi dəyərlərindən böyük sərvəti yoxdur. Bütün qalalar, tikililər, var-dövlətlər hansısa zaman çərçivəsində, dağılır, yox olub gedir. Ancaq etnosun toplum olaraq zaman-zaman kökləndiyi və formalaşdırıb gələcəyə daşıdığı dəyərlər ölümsüzdü.



Yazımızın əvvəlində filosof alimimizin ayrı-ayrı problemlərin təhlilinə həsr etdiyi yazılarının adını xüsusi olaraq qeyd eləməyimiz təsadüfi deyildir. Həmin adların ehtiva etdiyi təsəvvür bir tərəf olaraq bunu bütün təfsilatı ilə göstərmək gücündədir. M.Balayevin "İslam: mənşəyi, təkamülü və ictimai-siyasi həyatda rolu (problemin siyasi aspekti)" mövzusunda yazdığı doktorluq dissertasiyası da öz möhtəşəmliyi və fundamental məzmunu ilə nəzərdiqqəti cəlb edir, həm də filosof alimin sistemli fəaliyyətinin məqsədyönlülüyünü diqqət önünə gətirir. Belə bir problem mövzunun araşdırılması əlbəttə tədqiqatçıdan mənbələri, din tarixini, ayrı-ayrı dinlərin mövcudluq mənzərəsini də bir tərəf olaraq tipoloji müstəvidə təhlil etməyi gərəkli edirdi. Bütün bunlar timsalında müəllimim və müəllim həmkarım M.Balayevin nə qədər gərəkli problemləri araşdırma məqsədinə kökləndiyi aydınlaşır. Azərbaycanda müqəddəs pirlərin araşdırılmasından islamın mənşəyi, təkamülü və ictimai-siyasi həyatda roluna qədər olanların təhlilə gətirilməsi təkcə faktları öyrənməklə məhdudlaşmır, onun tipoloji təhlilini aparmaq və geneoloji mənzərəsini aydınlaşdırmaq kimi məsələləri də diqqət önünə gətirir. Burada bir istiqamətdə faktlara bələdlilik, problemi öyrənib mənimsəmə dayanırsa, digər tərəfdən onu təhlilə gətirib uğurlu nəticələri ortaya qoya bilmək bacarığı (nəzəri təhlil) diqqət önünə gəlir. Bütün bunların ortaqlığında görkəmli alim M.Balayev gərəkli uğurlara imza atmışdır.

Professor Məhəmməd Balayevin həyat və fəaliyyətinin aparıcı xətlərindən birini müəllimlik fəaliyyəti təşkil etmişdir. Ömrünün mühüm bir hissəsi Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlı olmuşdur. Müsabiqə yolu ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəlsəfə kafedrasına baş müəllim gələn (1973) alim həyatını demək olar bu universitetlə bağlamışdır. Azərbaycan balalarına elmin, mədəniyyətin, müəllimliyin sirlərini öyrətmiş, özü də davranışı, səmimiyyəti, xeyirxahlığı ilə nümunə olmuşdur. Bir növ xalqımızın övladlarına layla çalmışdır. Respublikamızın elə bir obasıoymağı, kəndi, qəsəbəsi olmaz ki, orada onun dərs dediyi, xeyirxahlığından yararlanmamış müəllim olmasın. Onlar hamısı məhz prof.

M.Balayevin və onun kimilərin timsalında olan müəllimlərimizdən öyrəndiklərindən yararlanmaqla həyata vəsiqə almışlar. Özləri də həmin yolun yolçusu kimi müəllimlərindən öyrəndiklərini gələcək nəsillərə mənimsətməyə çalışmışlar. Təxminən əlli illik müəllimlik fəaliyyəti ilə adını böyük müəllim ordusunun yaddaşına yazmışdır. Azərbaycan Dövlət Pedaqoji Universitetində baş müəlimlikdən professorluğa, kafedra müdirliyinə qədər böyük, həm də şərəfli yol keçmişdir. Mən də özlüyümdə müəllimim, müəllim həmkarım olaraq M.Balayevin həyat yolunu belə dolu, həm də şərəfli gördüm. Bakı Slavyan Universitetində (keçmiş M.F.Axundov adına Rus və Xarici Dillər İnstitutunda) (1968-1974), Azərbaycan Beynəlxalq Universitetində (1999-2010), Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında (1996-2000), Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasında (2008-2010) Fəlsəfədən mühazirə və seminarlar aparmışdır. Bütün fəaliyyəti boyu bağlı olduğu Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəlsəfə kafedrasında müəyyən fasilələrlə (1993-1999) və (2007-2017) müdir vəzifəsində çalışmışdır. Bütün bunların nəticəsi olaraq Azərbaycan pedaqoji fikrinin flaqmanı olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin 90 illiyi ilə bağlı yubileydə respublika prezidenti tərəfindən "Əməkdar müəllim" adına layiq görülmüşdür. Pedaqoji universitetin tarixində və pedaqoji fikrimizdə nəsillərə örnək olacaq iz qoyub getmişdir. İndi onun ruhu doğma məbədin geniş auditoriyalarında dolaşmaqdadır.

Prof. M.Balayevin bu ömür yolu xalq bayatılarımızın birində, qala, məbəd baxımından deyildiyi kimi, "tikmədim özüm qalam, tikdim ki, izim qala" timsalında bir örnəyə bağlanır.

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 3-cü səhifədə)*

Görkəmli filosof alimin həyat və fəaliyyətinin ana xəttini iki istiqamət, müəllimlik fəaliyyəti və elmi araşdırmaları təşkil etmişdir. Bunlar həm də biri digərini tamamlayan tərəf kimi görünür. "Ali məktəblərdə fəlsəfə elminin tədrisinin bəzi məsələləri", "Müasir dövr və islam təşkilatları", "Sufizmin meydana gəlməsinin ictimai-iqtisadi və siyasi şəraiti", "Cəmaləddin-əl Əfqaninin dini, ictimai və siyasi görüşləri", "Vəhabilik təriqəti necə meydana gəlmiş və onun dini prinsipləri nəyi təbliğ edir", "Məhəmməd Füzulinin dini, siyasi və əxlaqi görüşləri", "Kitabi-Dədə Qorqud" və islam", "Azərbaycanda yerli pir və ocaqların islamlaşdırılmasının bəzi məsələləri" və s. məqalələri filosof alimin fəlsəfi aspektdən yanaşmalarını diqqət önünə gətirir. Araşdırmalarının əhatəliliyi və problematikası ilə nəzər-diqqəti cəlb edən M.Balayev bütün təhlillərində mahiyyəti aydınlaşdırmağa üstünlük vermiş alimlərimizdəndir. Yadıma akademik H.Hüseynovla bağlı apardığı araşdırmalar zamanı etdiyi söhbətlər gəlir. Böyük Azərbaycan şairi Səməd Vurğun öz fikirlərini bölüşərkən deyirdi ki, "Heydər əsl filosofdur, düsturlarla, ehkamlarla düşünmür, fəlsəfi idrak onun canındadır". M.Balayev də təhlil yazısında məhz bu xətti əsas götürərək yazır: "Heydər Hüseynov 20 illik hərtərəfli fəaliyyətində Azərbaycanda elmin, mədəniyyətin, tarixin, Azərbaycan dilinin, ədəbiyyatının inkişafı üçün əvəzolunmaz xidmət göstərmiş və öz əməli işləri ilə, Azərbaycan xalqının mənəvi mədəniyyətində özünə əbədi şöhrət qazanmışdır". Doğrudan da, XX əsr elmi-nəzəri və fəlsəfi fikrində böyük rol oynamış Heydər Hüseynovun yaradıcılıq yolu, araşdırmaları, hansı gərəkli işləri görməsi böyük tədqiqatların problem mövzusudur. Prof.M.Balayevin görkəmli filosofla bağlı apardığı təhlillər diqqəti mahiyyətə yönəltməklə, sonrakı araşdırmalar üçün mühüm əhəmiyyət daşıyır.

# PROFESSOR MƏHƏMMƏD BALAYEV

M.Balayevin araşdırmalarında hər bir problem aktuallığı ilə diqqəti cəlb edir. "Sufizmin meydana gəlməsinin ictimai-iqtisadi və siyasi şəraiti" məqaləsi də bu sıradadır. Məlum olduğu kimi, sufizm orta əsrlərin mürəkkəb ictimai-siyasi şəraitində meydana gəlmiş dini-fəlsəfi, mənəvi-əxlaqi məfkurə hadisəsidir. Onun qaynaqları və ortaya qoyduğu model isə sərgilədiyi təsəvvürlə daha qədimlərə, şamanizmə, zərdüştliyə, buddizmə, brahmanizmə, qədim yəhudi mistikasına, xristianlığa, yunan fəlsəfəsinə bağlanmaqla özündə çox əski təsəvvürləri əhatələmək funksiyası ilə diqqət önünə gəlir. İslam aləmində onun sərgilədiyi məzmun isə orta əsrlər səviyyəsində bir başqa zənginliklə müəyyənləşir. "Sufi" termininin ehtiva etdiyi məzmundan bütövlükdə sistemin özünün mahiyyətində olanlara qədər bu gün də müxtəlif təhlillərə yol açacaq zənginliklə faktlaşır. Rəbiət-ül Ədəbiyyə, Həsən Bəsiri, Əbu Haşimi, Zünun-əl Misri, Bəyazid Bistami, Cüneyd Bağdadi, Həllac Mənsur, Əbu Həmid Qəzali, Mühyəddin ibn Ərəbi, Əhməd Yasəvi, Mövlanə Cəlaləddin Rumi, Yunis Əmrə və s. kimi böyük məfkurə sahibləri öz fəaliyyətləri ilə ariflik məqamında əvəzsiz xidmətləri ilə diqqət önünə gəlir. Filosof alim xüsusi olaraq vurğulayır ki, "islam dinində ictimai və siyasi inkişafla bağlı olaraq bir çox cərəyanlar, təriqətlər, hüquq məktəbləri, dini ayinlər, bayramlar meydana gəlmişdir. Belə cərəyanlardan biri də sufizmdir. Sufizm islam dininin meydana gəlməsindən və inkişafından iki əsr sonra, yəni VIII-IX əsrlərdə təşəkkül tapmış və islam şərqinin bir çox ölkələrində yayılmışdır". Konkret faktlardan çıxış edən alim məsələnin fəlsəfi aspektlərinə diqqət yetirməklə gəldiyi qənaətləri bölüşmüşdür.

"Müqəddəslərə pərəstişin yaranmasına dair", "İslam dini təşkilatları və onların fəaliyyət istiqamətləri", "İslam: din və siyasət", "Səfəvilər dövlətinin siyasi strukturu", "Ələsgər Ələkbərovun Azərbaycan maddi və mənəvi mədəniyyətinin öyrənilməsində xidməti", "Azərbaycan Demokratik Respublikasının humanitar siyasətinin bəzi məsələləri", "Müstəqil respublikamız və dilimiz", "Vilhelm Fridrix Hegel və Şərq", "İslamda fəlsəfi ideyaların yaranması və inkişafı" və s. kimi fundamental təhlilləri ilə diqqət önünə gələn professor bu araşdırmaları ilə adını xalqımızın fəlsəfi fikir tarixinə yazmışdır. Bu gün M.Balayev fiziki baxımdan bizim aramızda yoxdur, təxminən bir il əvvəl Haqq dərgahına qovuşmuşdur. Ancaq araşdırmaları, müxtəlif səpkili tədqiqatları ilə bizimlədir. Müdriklər "əcdadını özündə, özünü övladında görənlər əbədi yaşar" demişlər. Görkəmli filosof alimimiz Məhəmməd Balayev də elmimizə, mədəniyyətimizə verdiyi əvəzsiz örnəklərlə yaşarlıq qazanmışdır.



***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru,***
***professor***